**UOT 821.411.21**

# CURCİ ZEYDANIN "FƏRQANƏ GƏLİNİ" ROMANINDA XÜRRƏMİLƏR HƏRƏKATI İLƏ BAĞLI ELMİ-TƏNQİDİ MÜLAHİZƏLƏRİ

**Xeyransa ƏLİYEVA**[*]

Məqalə redaksiyaya daxil olmuşdur: 2 yanvar 2025; çapa qəbul edilmişdir: 12 may 2025; online-da çap edilmişdir: 25 iyun 2025.

Received: 2th of January, 2025; accepted: 12th of May, 2025; published online: 25th of June, 2025.

**Açar sözlər:** *Curci Zeydan, xürrəmilər, Babək, ərəb maarifçiliyi, tarixi roman, ideoloji mübarizə*

## Giriş

IX əsrdə xürrəmilər hərəkatı Abbasi xilafətinin mərkəzi idarəetməsindəki zülmə, iqtisadi istismara və dini ayrı-seçkiliyə qarşı xalq üsyanı kimi formalaşmışdı. Hərəkatın lideri, Azərbaycan xalqının igid oğlu Babək Xürrəmi, şəxsi igidliyi, İslam dünyasındakı siyasi-sosial nizamın tənqidi və xalqla birliyi baxımından Şərq tarixi üçün simvolik fiqura çevrilmişdi.

Curci Zeydan bu hərəkatı sadəcə bir silahlı qiyam deyil, eyni zamanda ideoloji, sosial və dini dəyərlərin toqquşması kimi qiymətləndirir. Bu baxışı nəinki tarixi tədqiqat əsərlərində, eləcə də "Fərqanə Gəlini" romanında ədəbi tərzdə ifadə edir. Bu yanaşma Curci Zeydanın ərəb maarifçiliyində elmi və bədii sintezi bacaran bir tədqiqatçı və yazıçı olduğunu sübut edir.

## 1. Curci Zeydanın tarixi roman yaradıcılığında xürrəmilər hərəkatı

Curci Zeydan (1861-1914) ərəb maarifçiliyinin (ən-Nahda) mühüm simalarından biri olmuş, ərəb ədəbiyyatı tarixində tədqiqatçı, yazıçı və publisist kimi dərin izlər qoymuşdur. O, xüsusilə müasir ərəb ədəbiyyatında tarixi roman janrının banisi hesab olunur. Onun yaradıcılığı İslam dünyasının müxtəlif mərhələlərdəki sosial, siyasi və mədəni inkişaflarına obyektiv yanaşaraq təhlilinə yönəlmişdir.

Zeydanın əsərləri arasında "Fərqanə gəlini" romanı İslam dünyasının müxtəlif dövrlərdəki sosial, siyasi və mədəni inkişaflarına obyektiv yanaşması ilə diqqət çəkən bir əsərdir. Bu roman təkcə siyasi-ideoloji mübarizələrin bədii təcəssümü deyil; onun bədii xəttində Xürrəmilər hərəkatı mühüm yer tutur. Zeydan hadisələri əsasən obrazları vasitəsilə təqdim edərək, oxucunu həm bədii hadisələrin içərisinə çəkir, həm də hərəkatın fonundakı tarixi reallıqların dərindən dərk edilməsinə şərait yaradır [5, s.62–66]. Romanda tarixi hadisələr təkcə xronoloji faktlarla deyil, həm də onların səbəb və nəticələri ön plana çəkilərək təsvir edilir. Yazıçının fikrincə, hər bir üsyan və ya siyasi hadisənin arxasında dərin ictimai və psixoloji səbəblər dayanır [6, c. III, s. 271].

İranlı tədqiqatçı Əhməd Kəsrəvi "Şiəlik tarixi" adlı əsərində Xürrəmiləri ilk sosialist hərəkatlardan biri kimi dəyərləndirir, onların əsas ideologiyasını mülkiyyətin

[*] *doktorant, AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu*
*e-mail:* s.hayrunnisa@gmail.com
**https://doi.org/10.30546/25194011.2025.14.2.243**

ortaq istifadəsi və sinfi bərabərlik ideyaları ilə əlaqələndirir. Kəsrəvi qeyd edir ki, "Xürrəmilər hakim sinfin özbaşınalığına qarşı təbii xalq reaksiyası idi" [8, s. 209].

Curci Zeydan xürrəmilər hərəkatının əsas səbəblərini Abbasi xilafətinin idarəçiliyindəki ədalətsizlik, ağır vergilər, mərkəzi hakimiyyətin fars mənşəli əhaliyə qarşı ayrı-seçkiliyi və kəndlilərin iqtisadi istismarı ilə əlaqələndirir. O yazır ki, bu hərəkat "fəqir təbəqələrin hüquq və azadlıqlarını bərpa etmək cəhdi" idi [6, c. III, s. 274].

Babək Xürrəmi hərəkatın ideoloji lideri kimi xalq arasında yüksək nüfuza malik idi. Məhz Curci Zeydanın "Fərqanə gəlini" romanı Azərbaycan üçün çox mühüm tarixi əhəmiyyətə malik bir əsərdir. Zeydan Babəki yalnız bir sərkərdə kimi deyil, həm də ideya daşıyıcısı kimi qiymətləndirir: "Babəkin xalq içərisində nüfuzu onun şəxsi igidliyindən çox, ədalət axtarışı və mövcud quruluşa qarşı üsyanı ilə bağlı idi" [6, c. III, s. 276].

İraq tarixçisi Hüseyn Mərzüqi xürrəmilər hərəkatını "dini radikalizm və sosial ədalətsizlik arasında tarazlıq yaratmağa çalışan bir cəhd" kimi qiymətləndirmişdir [9, s. 118]. Onun fikrincə, bu hərəkat yalnız dini-siyasi deyil, həm də fəlsəfi və ekzistensial çalarlar daşıyırdı. Mərzüqiyə görə, Babək şəxsiyyəti müasir anlamda liderlik nəzəriyyələrinə də cavab verir [9, s.62–65].

Curci Zeydanın xürrəmilər hərəkatı ilə bağlı elmi-tənqidi mülahizələri əsasən Xürrəmilərin dini sistemini zərdüştilik, maniçilik və məzdəkilik kimi inanclarla əlaqələndirməsindən ibarətdir. Onun fikrincə, bu inanc sistemləri sosial bərabərlik və mülkiyyətin ədalətli bölüşdürülməsi ideyalarını özündə daşıyırdı. Babək bu təlimləri xalqın mənafeyi üçün ideoloji baza kimi istifadə edirdi [6, c. III, s. 278].

Romanda təsvir edilən Od evi səhnəsi xürrəmilər hərəkatının sirlərinin ifşası baxımından xüsusi əhəmiyyət kəsb edir. Əsərdə Vərdanın məbədə daxil olması, ruhanilərin və siyasi liderlərin – Əfşin, İsbahbəd və kahinlərin məxfi görüşlərinə şahidlik etməsi göstərir ki, müəllif Xürrəmilər hərəkatını yalnız dini və etiqadi hərəkət kimi deyil, həm də konkret siyasi ittifaqların məhsulu kimi qiymətləndirir [5, s.62–65].

Azərbaycanlı tarixçi akademik Ziya Bünyadov xürrəmiləri Azərbaycanın ictimai-siyasi tarixində mühüm rol oynamış xalq hərəkatı kimi səciyyələndirir. O yazır: "Bu hərəkat yalnız dini deyil, həm də milli-azadlıq elementləri daşıyırdı. Xürrəmilər, xüsusilə Babək, Azərbaycan xalqının yaddaşında qəhrəmanlıq simvoludur" [1, s. 134].

Curci Zeydan qeyd edir ki, xürrəmilər müəyyən qədər dini rituallara istinad etsələr də, bu ayinlərin əsas məqsədi xalqı bir ideya ətrafında birləşdirmək idi: "Onların dini anlayışları daha çox sosial proqram xarakteri daşıyırdı" [7, c. III, s. 279].

Curci Zeydan tarixə sadəcə hadisələrin ardıcıllığı kimi deyil, ictimai və ideoloji faktorlarla izah olunan kompleks proses kimi yanaşırdı. Onun tarixi əhəmiyyət kəsb edən "Tərixu-t-təmədduni-l-islamiyyi" ("İslam mədəniyyəti tarixi") adlı tədqiqat əsərində xürrəmilər hərəkatı ədalətsiz vergi sistemi, dini ayrı-seçkilik, sosial bərabərsizlik kimi amillərlə izah edilir. Curci Zeydan yazır: "Bu hərəkat fəqir sinfinin haqlarını bərpa etmə cəhdi idi" [7, c. III, s. 279].

### 2. "Fərqanə gəlini" romanında xürrəmilər hərəkatının tarixi-nəzəri əhəmiyyəti və Curci Zeydanın ideoloji baxışı

Curci Zeydan "Fərqanə gəlini" romanında xürrəmiləri idealizə etsə də, bəzi məqamlarda tənqidi mövqeyini də bildirir. O, xürrəmilər hərəkatının bəzi zorakı davranışlarını və ümumilikdə dini təhriflərini tənqid edir. Onun fikrincə, radikal üsullar bəzən hərəkatın geniş xalq dəstəyi qazanmasına mane olmuşdur [7].

O, "Tərixu-t-təmədduni-l-islamiyyi" ("İslam mədəniyyəti tarixi") adlı tədqiqat əsərində bu haqda yazır: "Xürrəmilər arasında dini-fanatizmə yaxın radikal təbəqələr mövcud idi ki, onların fəaliyyəti hərəkatın ümumi ideallarına zidd idi" [6, c. III, s. 281].

Bu tənqidi yanaşma Zeydanın maarifçi və realist mövqeyindən irəli gəlir; o, tarixi yalnız emosional deyil, analitik düşüncə ilə qiymətləndirməyə çalışır.

Curci Zeydan romanda xürrəmilər hərəkatının məğlubiyyətini bir neçə əsas faktorla izah edir: Əfşinin rəhbərliyi ilə xilafət ordusunun hərbi üstünlüyü, Babəkin siyasi təcrid olunması, bəzi yerli qüvvələrin ondan üz çevirməsi, eləcə də xürrəmilərin daxilindəki fikir ayrılıqları və qeyri-mərkəzləşdirilmiş strukturu [7, s. 82–83].

Əfşin obrazı romanın ideoloji nüvəsini təşkil edən əsas simalardandır. Curci Zeydan bu obraz vasitəsilə Abbasi xilafətinin daxilindəki ziddiyyətləri, xüsusilə türk mənşəli sərkərdələrin siyasətdəki ikiüzlülüklərini və açıq-aşkar ideoloji tərəfkeşliklərini tənqid edir. Əfşinin bir tərəfdən Samərra məscidində müsəlman kimi görünməsi, digər tərəfdən isə atəşpərəst kahinlərlə və Babək əl-Xürrəminin nümayəndələri ilə gizli görüş keçirməsi – onun obrazında satirik-ironiya elementlərini gücləndirir [5, s.64–65].

Curci Zeydanın romanda tarixi hadisələrə obyektiv yanaşmağa çalışması, xüsusilə onun sosial-iqtisadi amilləri önə çəkməsi, bu hərəkatı anlamaqda əhəmiyyətli rol oynayır. Xürrəmilər hərəkatı Şərqdə sosial ədalətsizlik və siyasi despotizmə qarşı yaranmış erkən xalq hərəkatlarının ən tipik nümunələrindəndir.

Babəkin əsir alınması və edam edilməsi Zeydan üçün bir dövrün sonu və eyni zamanda ideallar uğrunda mübarizənin simvoludur. Curci Zeydanın xürrəmilərə verdiyi qiymət yalnız onların keçmişdəki fəaliyyətlərinə deyil, həm də gələcəkdə sosial ədalət ideyalarının inkişafına töhfə baxımından mühümdür. O yazır: “Xürrəmilər öz dövrlərinin tələblərinə cavab verən, lakin zamanla uyğunlaşmayan bir sistemin təmsilçiləri idilər” [6, c. III, s.284].

Curci Zeydanın “Fərqanə gəlini” romanında tarixi hadisələrə bu cür yanaşması keçmişdə baş verən hadisələrin müasir qiymətləndirilməsi baxımından əhəmiyyətlidir [7]. Yazıçının romanda xürrəmilər hərəkatını xüsusilə Şərqdə erkən sosial ədalət axtarışlarının ifadəsi kimi təqdim etməsi diqqəti cəlb edən əsas məqamlardandır [7]. O, Babəkin rəhbərliyi altında formalaşan bu hərəkatı sadəcə bir dini etiraz deyil, həm də aşağı təbəqələrin siyasi və iqtisadi haqsızlıqlara qarşı təşkilatlanmış mübarizəsi kimi qiymətləndirir [7, s.62].

Yazıçı bu hərəkatın yaranmasında bölgədəki ağır vergi siyasətinin, yerli əhali ilə Abbasilər hakimiyyəti arasında yaranmış uçurumun və dini zəmindəki narazılıqların birgə rol oynadığını da vurğulayır [7, s.64].

Zeydan “Fərqanə gəlini” romanında Babəki təkcə bacarıqlı bir sərkərdə deyil, həm də xalqı arxasınca apara bilən yeni ideyalara malik şəxsiyyət olduğunu qeyd edir. O, Babəkin siyasi-ideoloji mövqeyini təhlil edərkən, onun yalnız hərbi qələbələrə deyil, həm də davamlı ideya əsaslarına söykənən bir hərəkat yaratmağa çalışdığını bildirir. Müəllif eləcə də Babəkin şəxsiyyətində və liderliyində antik qəhrəmanlıqla rasional strateji düşüncə tərzinin vəhdətini görür.

Romanın ideoloji təhlili baxımından mühüm məqamlardan biri də Babək obrazının sonrakı səhifələrdəki təsviridir. Babəkin fiziki təsviri, onun xarakter xüsusiyyətləri – təkəbbürlü, şücaətli, sərt və rəhbərliyə alışmış bir insan kimi təqdim olunması – müəllifin ona həm heyranlıq, həm də tənqidi münasibət bəslədiyini göstərir [5, s.136].

Romanda həmçinin xürrəmilərin dini-fəlsəfi əsaslarına toxunularaq, bu hərəkatın yalnız İslam daxilindəki şiə və batini cərəyanlardan deyil, eyni zamanda Zərdüştilik və yerli dini inanclardan da bəhrələndiyi izah olunur. Curci Zeydan romanda xürrəmilərin məğlubiyyətini yalnız hərbi səbəblərlə izah etmir [12]. O, daxili parçalanmalar, uzunmüddətli mübarizənin yaratdığı sosial və iqtisadi tükənmə, eləcə də Abbasi xilafətinin güclü hərbi-siyasi təzyiqini əsas amillər kimi göstərir. Bununla belə, Zeydan romanda xürrəmilər hərəkatının Şərq tarixində ilk sosial və ideoloji yönümlü xalq hərəkatlarından

biri kimi mühüm yer tutduğunu və Babəkin bu hərəkatın simvoluna çevrildiyini ədəbi çalarlarla sübut edir [7].

Curci Zeydanın "Fərqanə gəlini" romanında xürrəmilər hərəkatına münasibəti təkcə bədii-estetik deyil, həm də ciddi ideoloji-fəlsəfi kontekstdə qurulmuşdur. O bu hərəkatı Şərqdə baş vermiş ən erkən sosial-iqtisadi etiraz hərəkatlarından biri kimi təqdim etməklə, onu ideoloji və siyasi baxımdan təhlil edir. Zeydan bu hadisələrə yalnız tarixi fakt kimi deyil, həm də maarifçi baxış bucağından – sosial inkişafın mərhələsi kimi yanaşır. Onun fikrincə, xürrəmilər hərəkatı zülm, istismar və dini ayrı-seçkilikdən əziyyət çəkən təbəqələrin ictimai reaksiyasını ifadə etmişdir [6, c. III, s. 276–279].

Əsərdə yer alan obrazlar vasitəsilə Curci Zeydan bir neçə ideoloji təbəqəni qarşılaşdırır: bir tərəfdə sosial ədalət axtaran, xalq təbəqələrinin hüquqları uğrunda mübarizə aparan Babək və xürrəmilər; digər tərəfdə isə mərkəzi hakimiyyətin, yəni Abbasi xilafətinin təzyiqçi, istismarçı siması dayanır. Vərdan, Əfşin, Babək kimi personajlar bu ideoloji qütbləşmənin fərqli baxış bucaqlarını təmsil edir. Bu qarşıdurmanın mərkəzində isə xalqın azadlıq və ədalət arzusu dayanır. Müəllif məhz bu ümumbəşəri ideyanı əsərin bədii əsasına çevirməklə həm dövrün ruhunu, həm də tarixdəki sosial dinamikanı əks etdirməyə nail olmuşdur.

Eyni zamanda, Curci Zeydan Xürrəmiləri yalnız üsyançı bir hərəkat kimi deyil, alternativ bir sosial sistemin daşıyıcısı kimi də təqdim edir. Əsərdə xürrəmilərin mülkiyyət münasibətləri, qadının cəmiyyətdə rolu, ruhanilərin cəmiyyətə təsiri və fikirləri, onların nə dərəcədə sistemli bir ideologiyaya sahib olduqları üzə çıxarılır. Xüsusilə, qadın obrazlarının – Yəmən şahzadəsi, Vərdanın bacısı və digər fiqurların fəal rolu – müəllifin Xürrəmilərin cəmiyyətə yenidən baxış tərzini vurğuladığını göstərir [7, s. 64–79].

Əlavə olaraq, əsərdə zərdüştilik və maniçilik elementlərinin, xüsusilə də Od evləri və gizli ritualların təsvirində Curci Zeydan bu dini təlimlərin xürrəmilərə təsirini açıq şəkildə nümayiş etdirir. Müəllifin bu təsviri onun geniş tarixi və dini biliklərinə əsaslanır və İslam sonrası İran cəmiyyətində hələ də yaşamaqda olan sinkretik inanc sistemlərinə işarə edir. O yazır: "Xürrəmilərin ideologiyasında müxtəlif dinlərin sintezi onların ümumxalq hərəkatına çevrilməsinə təkan verirdi" [6, c. III, s. 278].

Bu kontekstdə Curci Zeydan Babək şəxsiyyətində yalnız qəhrəmanlıq görmür, həm də maarifçilik ideyalarının cəsarətli daşıyıcısını canlandırır. Babəkin liderlik bacarığı, siyasi və hərbi strategiyası, xalqın rifahı naminə göstərdiyi fədakarlıq onu sadəcə romantik obraz kimi deyil, siyasi-fəlsəfi idealların təmsilçisi kimi də təqdim edir. Zeydanın əsərində Babək obrazı ilə Qərb romantizmindəki qəhrəman tipi arasında müəyyən paralellər qurmaq mümkündür.

Maraqlıdır ki, Zeydanın bu yanaşması onun ümumən ərəb maarifçiliyinə – ən-Nahda hərəkatına uyğun gəlir. Maarifçilik ideyalarına əsaslanan mütəfəkkir keçmişə baxaraq gələcəyi formalaşdırmaq istəyir. O, keçmiş xalq hərəkatlarını yalnız tarixi fakt kimi deyil, həm də müasir ərəb-İslam cəmiyyətlərinə sosial ədalət, azadlıq və hüquq baxımından təqdim edir [8, s. 55-78].

Zeydanın "Fərqanə gəlini" romanında xürrəmilər hərəkatı tarixi faktlar işığında ədəbi formada harmoniya yaradır. Əsərdə Əfşinlə bağlı təqdim olunan daha sonrakı səhnələrdə xəlifə Mötəsimin və onun qazilərlə keçirdiyi müşavirə, Əfşinin satqınlığı və Babəklə ehtimal olunan birliyindən doğan qorxu dolu müzakirələr Zeydanın İslam siyasi sisteminə tənqidi yanaşmasının sübutudur [5, s.133-135].

O, ümumiyyətlə, xürrəmilərin məğlub olmasını təkcə xilafət ordusunun hərbi üstünlükləri ilə deyil, həm də hərəkatın daxili ixtilafları sayəsində sosial-iqtisadi cəhətdən zəiflədilməsi ilə əlaqələndirir [10, s.45-78]. Müəllif Babəkin əsir alınmasını xalq mübarizəsinin sonu kimi deyil, ideallar uğrunda verilmiş əzmlə mübarizənin simvolu ki-

mi qiymətləndirir [7, s. 78-99]. “Fərqanə gəlini” romanı bu baxımdan Şərq tarixində ilk sosial-ideoloji xalq hərəkatının bədiiləşmiş inikası kimi çox dəyərlidir.

## Nəticə

Curci Zeydanın xürrəmilər hərəkatına həm tədqiqatçı, həm də yazıçı kimi yanaşması onun qeyri-adi maarifçi və obyektiv təfəkküründən irəli gəlir. Curci Zeydanın yaradıcılığında Xürrəmilər hərəkatı ilə bağlı yürütdüyü fikirlər ərəb və İslam tarixşünaslığında mühüm elmi yenilik hesab olunur. Onun yeri gəldikcə istər obyektiv, istərsə də tənqidi və çoxsahəli yanaşması ərəb ədəbiyyatında bu tarixi hadisənin dərin qatlarını üzə çıxarmağa imkan verir.

“Fərqanə gəlini” romanı tarix, ədəbiyyat və yeni ideologiyanın sintezini təqdim edən bədii nümunə olmaqla yanaşı, eyni zamanda xürrəmilər hərəkatının Şərq şüurunda formalaşmasına da şərait yaratmışdır. Onun obyektiv təhlilləri Şərq tarixinin dərindən dərkinə imkan verir. Babək və onun başçılıq etdiyi hərəkat sadəcə silahlı üsyan deyil, eyni zamanda ədalət və azadlıq uğrunda simvolik mübarizə idi.

Xürrəmilər hərəkatına dair mövcud tarixi mənbələr və müasir araşdırmalar arasında ərəb maarifçiliyinin görkəmli nümayəndəsi Curci Zeydanın xüsusilə “Arusu-i Fərqanə” (“Fərqanə gəlini”) romanında şərh etməsi və yanaşması xüsusi maraq doğurur. Curci Zeydan həm tarixi əsərlərində, həm də bədii romanlarında bu hərəkatı dərinliklə təhlil etmiş, onu sadəcə silahlı üsyan kimi deyil, zamanın sosial və mənəvi ehtiyaclarının ifadəsi kimi qiymətləndirmişdir. Xüsusilə onun “Fərqanə gəlini” romanı bu baxımdan əhəmiyyətli nümunədir. Romanda tarixi həqiqətlər ədəbi çalarlarla vəhdət təşkil edərək Xürrəmilər hərəkatının ideoloji və fəlsəfi mahiyyəti zəngin şəkildə təqdim olunur.

## ƏDƏBİYYAT


1. Bünyadov Z. Babək və xürrəmilər hərəkatı. Bakı: Elm, 1989, 334 s.
2. Əliyev F. Babək və xürrəmilər. Bakı: Elm, 1992, 150 s.
3. Məmmədov R. Azərbaycan tarixində Babək. Bakı: Azərnəşr, 2000, 280 s.
4. Məmmədov A. Babəkin şəxsiyyəti və liderlik xüsusiyyətləri ərəb mənbələrində // Tarix və onun problemləri, 2017, №2, s. 55–62.
5. Zeydan C. Fərqanə gəlini. Ərəb dilindən tərcümə edən: V.Cəfər. Bakı: Gənclik, 1996, 292 s.
6. زيدان، جرجي. تاريخ التمدن الإسلامي، ج 3. بيروت: دارالهلال، 1903، ص. 271–284
7. الزيدان، جرجي. عرس فرغانة. بيروت:دار الهلال، 2008، ص26
8. أحمد جواد. فيليب حتي تاريخ العرب. ترجمة: بيروت: دار العلم للملايين، 1953.
9. مرزوقي، حسين. الحركة الاجتماعية في التاريخ الإسلامي. بغداد: الجنان، 2001، ص. 71
(ümumi səhifə göstərilməlidir).
10. https://www.wikimedia.az-az.nina.az/%C4%B0mam_Museyi_Kaz%C4%B1m.html?utm



***Резюме***

***Хейранса Алиева***

***Научно-критические рассмотрения о движении Хуррамидов в романе «Ферганская невеста» Джурджи Зейдана***

Настоящая статья представляет собой научно-критический анализ Хуррамитского движения в историческом романе Джурджи Зейдана «Невеста Ферганы» – одного из значительных произведений арабского Возрождения (Нахды). Зейдан, выступая как реформатор и просветитель, рассматривает восстание хуррамитов не просто как исторический эпизод, а как глубоко символическое проявление идеологического протеста, социальной борьбы и культурной самоидентификации. В образе Бабека Хоррамдина он соединяет реального вождя и философски осмысленного героя, борющегося за справедливость и свободу.

Роман раскрывает хуррамитов как силу, выступающую против религиозного угнетения и политического деспотизма Аббасидского халифата. Зейдан акцентирует внимание на идеологическом синкретизме движения — его связи с доисламским иранским наследием и принципами социального равенства. Благодаря реалистической манере повествования, автор придаёт исторической реконструкции живость и убедительность, одновременно выражая критическое отношение к несправедливости и тирании.

Зейдан сознательно использует историю как инструмент нравственного и политического воспитания. Через фигуру Бабека он призывает современного читателя к пробуждению, сопротивлению и переосмыслению власти. Причины поражения хуррамитов трактуются не только как военное поражение, но и как следствие идеологических противоречий и структурной уязвимости освободительных движений.

Таким образом, «Невеста Ферганы» — это не просто роман, а своеобразный интеллектуальный манифест, сочетающий художественную форму с историко-философской рефлексией. Произведение служит важным вкладом в арабскую литературную традицию, осмысливающую наследие сопротивления и реформ.

**Ключевые слова:** *Джурджи Зейдан, хуррамиты, Бабек, арабская историография, идеология, Аббасидский халифат.*

***Summary***

***Khayransa Aliyeva***

***Scientific-Critical Considerations on the Khurramid Movement in the Novel "The Bride of Fergana" by Curci Zeydan***

This article offers a scientific-critical exploration of the Khurramid movement as represented in Jurji Zaydan's historical novel The Bride of Fergana, a key literary work of the Arab Nahda (Renaissance). Zaydan, known for his reformist vision and rationalist worldview, interprets the Khurramite uprising not merely as a historical episode but as a symbolically charged manifestation of ideological resistance, socio-economic protest, and cultural identity. Through his depiction of Babak Khorramdin, Zaydan presents a dual narrative—both heroic and tragic—of a leader who stands at the intersection of historical reality and philosophical idealism.

The novel constructs the Khurramite movement as a reaction to the oppressive centralization and sectarian discrimination under the Abbasid Caliphate. Zaydan emphasizes the movement's hybrid foundations, drawing from pre-Islamic Persian heritage and egalitarian doctrines, thereby highlighting its revolutionary character. The literary realism embedded in the novel strengthens its historical credibility, while allowing Zaydan to subtly critique authoritarianism and social injustice.

Zaydan's engagement with history is not neutral; it is purposeful and didactic. By portraying Babak as a morally upright, visionary leader, he aims to inspire contemporary Arab readers toward awakening, resistance, and reform. The downfall of the Khurramites is analyzed not only in terms of military defeat, but also as the consequence of ideological fragmentation and the challenges of sustaining a just rebellion in an unjust world.Ultimately, The Bride of Fergana stands as a unique fusion of literature, historiography, and political thought—transforming historical fiction into a powerful vehicle for intellecttual discourse and cultural memory in the modern Arab context.

**Key words:** *Jurji Zaydan, Khurramites, Babak, Arab historiography, ideology, Abbasid Caliphate.*

"Sivilizasiya" elmi-praktiki jurnalının məsul katibi fil.ü.f.d., prof. Şıxıyeva Səadət Məmməd qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.